

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 248 (23.410)

*29 dekabr 2019-cu il, bazar*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Kəngərli rayonunun Böyükdüz kəndi inkişafın yeni mərhələsində

Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan davamlı inkişaf dövrünü yaşayır. Həyata keçirilən uğurlu sosial-iqtisadi islahatlar və aparılan quruculuq işləri ölkəmizdəki sabitliyi, inkişafı və ən əsası dövlət-xalq birliyini möhkəmləndirir. İnsanların rifahına hesablanmış kompleks islahatlar Heydər Əliyev siyasi xəttinin bəhrəsi kimi xalqımızın həmrəyliyini daha da gücləndirir. Naxçıvan Muxtar Respublikasında da yaşayış məntəqələri müasir görkəmə qovuşmuş, insanların rahat yaşayışı təmin edilmişdir.

Dekabrın 28-də – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində Kəngərli rayonunun Böyükdüz kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir.

## Böyükdüzdə yeni məktəbin açılışı oldu





Dekabrın 28-də Böyükdüz kənd tam orta məktəbi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məktəbin açılışını bildirən lenti kəsmiş, yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, tədrisin keyfiyyətinin yüksəldilməsi üçün geniş imkanların yaradıldığı müasirtipli məktəb 342 şagird yerlikdir. İki mərtəbəli yeni təhsil ocağında 21 sinif otağı, hərbi kabinə, kimya, biologiya və fizika laboratoriyaları, şahmat sinfi, kompüter, müəllimlər və psixoloq otaqları, kitabxana və idman zalı vardır. Məktəbdə internetə çıxışı olan 22 kompüter və 3 elektron lövhə quraşdırılmışdır.

Muxtar respublikanın məktəblərində yaradılan kitabxanalar şagirdlərin mütaliə imkanlarını genişləndirir, dünyagörüşlərini artırır. Məktəbin kitabxana fondunda 3040-ı dərslik və 2660-ı bədii ədəbiyyat olmaqla, 5700 kitab vardır. Burada "Oxunması zəruri olan kitablar"dan ibarət guşə yaradılmış, məktəbəhazırlıq qrupları üçün tədris vəsaitləri qoyulmuşdur.

Məktəbin müəllimlərindən Nərminə Məmmədova və Sədaqət Muradova gənc nəslin təhsili üçün yaradılan şəraitə görə minnətdarlıq etmişlər.





Ali Məclisin Sədri laboratoriyalarda, şahmat sinfində, idman zalında və hərbi kabinədə dərslərin tədrisi ilə maraqlanmış, gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin, fiziki hazırlığının və dəqiq elmlərə marağının artırılmasının vacibliyini qeyd etmişdir.

Elektron lövhəli sinifdə Xan Sarayı Dövlət Tarix-Memarlıq Muzeyi ilə muxtar respublikanın ümumtəhsil məktəbləri arasında keçirilən interaktiv dərs izlənmişdir.

Sonra Ali Məclisin Sədri müəllimlər otağında məktəbin pedaqoji kollektivi ilə görüşmüşdür.

Böyükdüz kənd tam orta məktəbinin direktoru Solmaz Quliyeva çıxış edərək demişdir ki, həyata keçirilən quruculuq tədbirləri nəticəsində muxtar respublikamızın şəhər, rayon, qəsəbə və kəndlərində ən müasir infrastruktur yaradılmışdır. Təhsil sahəsində də mühüm işlər görülmüş, müasir məktəb binaları tikilərək istifadəyə verilmişdir. Çox şadıq ki, bu diqqət və qayğıdan Böyükdüz kəndinə də pay düşmüş və kollektiv müasir məktəb binası ilə təmin olunmuşdur. Solmaz Quliyeva məktəbin kollektivi adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Məktəbin müəllimi Aygül Məmmədova Ali Məclis Sədrinin ***"Təhsilə qoyulan sərmayə ölkənin gələcəyinə qoyulan sərmayədir"*** fikrini xatırladaraq demişdir: "Bu bir həqiqətdir ki, muxtar respublikada təhsil quruculuğu geniş vüsət alıb. Ali Məclis Sədrinin qayğısı ilə ən müasir tədris imkanları olan 200-dən artıq məktəb binası istifadəyə verilib. Muxtar respublikanın hansı kəndinə getsək, orada ən hündür bina məktəb binasıdır. Bu gün müəllimlər, o cümlədən şagirdlər və kənd əhalisi böyük sevinc içindədirlər. Çünki Böyükdüz müasir kəndlər sırasına qoşulub. Məktəbimiz yenidən qurularaq müəllim və şagirdlərin istifadəsinə verilir. Müəllim və şagirdlər üçün yüksək tədris şəraiti yaradılıb. Bu qayğı biz müəllimləri daha yaxşı işləməyə ruhlandırır".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Böyükdüz kənd tam orta məktəbinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Bu gün Böyükdüz kəndinin həyatında əlamətdar gündür. Kənddə geniş quruculuq işləri aparılmış, məktəb, xidmət mərkəzi, həkim ambulatoriyası və yol istifadəyə verilmişdir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***"Dövlət haradan olursa olsun, nədən olursa olsun kəsib məktəb işinə sərf etməli, müəllim əməyinə qiymət verməlidir".*** Bu gün ölkəmizdə həyata keçirilən tədbirlər nəticəsində təhsil sahəsində böyük nailiyyətlər qazanılmışdır. Azərbaycan savadlılıq səviyyəsi 100 faiz olan ölkələr sırasına daxil olmuşdur. Bu gün gənclərimiz ölkəmizlə yanaşı, həm də xarici dövlətlərin universitetlərində ali təhsil alır, Azərbaycanı uğurla təmsil edirlər. Həmin gəncləri yetişdirən isə məktəblər və müəllimlərdir. Böyükdüz kənd tam orta məktəbinin də son 5 ildəki nailiyyətləri onu deməyə əsas verir ki, məktəbdə nizam-intizam, müəllim tələbkarlığı və şagird çalışqanlığı vardır.

Ali Məclisin Sədri məktəbin nailiyyətlərinə görə kollektivə təşəkkür edərək demişdir: Bu gün Böyükdüz kəndində müasir tədrisin tələblərinə tam cavab verən məktəb istifadəyə verilir. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə olunmalı, dərslər qavrama yolu ilə öyrədilməli, müasir tədris metodları tətbiq edilməlidir. Yaradılan şərait tədrisin yaxşı əhval-ruhiyyədə və müasir tələblər səviyyəsində təşkilinə imkan verəcəkdir. Bütün bunlar əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş sabitliyin, inkişafın və dövlət-xalq birliyinin bəhrəsidir. Bu gün ulu öndərin yolunun uğurla davam etdirilməsi sabitlik və inkişafı daha da möhkəmləndirir. Gənclərimiz Vətənə məhəbbət ruhunda tərbiyə olunmalı, müstəqilliyimiz və dövlətçiliyimiz, ulu Heydər Əliyev yolunun Azərbaycana bəxş etdiyi uğurlar onlara öyrədilməlidir.



*Ardı 2-ci səhifədə*

Ali Məclisin Sədri demişdir: Məktəb kollektivinin əməyi dövlətimiz tərəfindən qiymətləndirilmiş, bir müəllim "İlin ən yaxşı müəllimi" seçilmişdir. Yaradılan şəraitin müqabilində məktəb nailiyyətlərini daha da artıracaq, fərqlənən müəllimlərin əməyi qiymətləndiriləcək, Böyükdüz kənd tam orta məktəbi muxtar respublikamızın qabaqcıl təhsil ocaqları sırasında öz layiqli yerini tutacaqdır.

Ali Məclisin Sədri qarşıdan gələn 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə kollektivi təbrik etmiş, tədrisdə uğurlar arzulamışdır.

Binanın həyatında bufet və fərdi qazanxana tikilmiş, açıq idman qurğuları quraşdırılmış, yaşıllıq salınmışdır.

## Həkim ambulatoriyasında əhaliyə nümunəvi xidmət göstəriləcək





Muxtar respublikada müasir səhiyyə müəssisələrinin qurulması və icbari tibbi sığortaya keçid bu sahədə xidmətin səviyyəsini yüksəltmişdir.

Dekabrın 28-də Böyükdüz kəndində həkim ambulatoriyasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, tibbi xidmətin təşkili ilə maraqlanmışdır.

Bildirilmişdir ki, lazımi avadanlıqlarla təchiz edilmiş ambulatoriyada 9 xidməti otaq, o cümlədən baş həkim, stomatoloq üçün kabinə, doğuş, manipulyasiya, peyvənd, fizioterapiya kabinəsi, qeydiyyat və aptek vardır. Qeydiyyat otağında icbari tibbi sığortanın tətbiqi üçün şərait yaradılmışdır.

Həkim ambulatoriyasında stomatoloji qurğu, doğuş masası, quruducu şkaf, peyvənd və təcili yardım çantaları, mikroskop, sentrifuqa, hemometr, qlükometr, tərəzi, boyölçən, soyuducu və digər tibbi avadanlıqlar qoyulmuşdur. Fizioterapiya kabinəsi isə elektroterapiya və ultrasəslə müalicə aparatı, ultrayüksək tezlikli cərəyanla müalicə aparatı, parafinəritmə qazanı və solyuks lampası ilə təchiz edilmişdir.

Tibb işçisi Gözəl Babayeva əhalinin sağlamlığının qorunması sahəsində görülən işlərə görə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri həkim ambulatoriyasında səhiyyə işinin düzgün təşkili və icbari tibbi sığortanın tətbiqi ilə bağlı tapşırıqlar vermişdir.



## Böyükdüz kənd avtomobil yolu yenidən qurulmuşdur




Muxtar respublikada kənd yollarının təmiri və yenidən qurulması diqqət mərkəzində saxlanılır. Çünki müasir və abad yol inkişaf və rahat həyat deməkdir.

Dekabrın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Böyükdüz kənd avtomobil yolunun açılışını etmişdir.

Məlumat verilmişdir ki, ümumi uzunluğu 2600 metr olan kənd avtomobil yolu yenidən qurulmuş, asfalt örtük salınmışdır. 600 metr uzunluğundakı kənddaxili yollar təmir olunmuş, qum-çınqıl qatı verilmişdir. Yolun üzərində 54 su keçidi qoyulmuş, 730 metr beton su kanalı çəkilmişdir.



## Xidmət mərkəzi sakinlərin gündəlik tələbatını ödəyəcək

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Böyükdüz kəndində xidmət mərkəzinin də açılışını etmişdir.

Məlumat verilmişdir ki, mərkəzdə gözəllik salonu, bərbərxana, dərzi, ət satışı yeri, ərzaq, sənaye və təsərrüfat malları mağazaları, eləcə də 2 anbar vardır. Xidmət sahələrinin fəaliyyəti üçün mərkəzdə nümunəvi şərait yaradılmış, 6 sakin işlə təmin olunmuşdur. Mağazada kənddəki ailə təsərrüfatlarında istehsal olunan məhsulların satışı ayrıca bölmədə təşkil edilmişdir.

Xidmət mərkəzində işlə təmin olunan Nərminə Rəsulova və dərzi İlqar Camalov göstərilən diqqətə görə minnətdarlıq etmişlər.

Ali Məclisin Sədri Böyükdüz kənd sakinləri ilə görüşmüş, onları kənddə aparılan quruculuq işləri münasibətilə təbrik edərək demişdir: Aparılan quruculuq işləri Böyükdüz kəndinə yeni bir həyat və rahat yaşayış gətirib. Müasir məktəbin, yolun, xidmət mərkəzinin və həkim ambulatoriyasının istifadəyə verilməsi, görülən abadlıq işləri sakinlərin rahatlığına hesablanmışdır. Vaxtilə kənddə istixana kompleksi və sənaye şəhərciyi istifadəyə verilmiş, toxumçuluq təsərrüfatı yaradılmışdır. Hazırda toxumçuluq təsərrüfatında qapalı suvarma şəbəkəsi qurulur. Kənddə 1000 hektara yaxın pay, 5400 hektara yaxın bələdiyyə torpağının olması əkinçilik üçün geniş imkanlar açır. Böyükdüz kənd sakinləri torpağa bağlı insanlardır. Kəndin zəhmətkeş insanları torpaqlardan səmərəli istifadə edərək həm öz yaşayışlarını təmin edir, həm də ölkəmizin ərzaq təhlükəsizliyinə töhfə verirlər. Eyni zamanda kənddə 350-yə yaxın sakin dövlətdən əməkhaqqı, təqaüd və pensiya formasında vəsait alır.



"Azərbaycandakı mövcud sabitlik və inkişafın, dövlət-xalq birliyinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu gün ulu öndərin yolunun uğurla davam etdirilməsinin nəticəsi Böyükdüz kəndinin

*Ardı 3-cü səhifədə*






timsalında aydın görünür”, – deyən Ali Məclisin Sədri qarşıdan gələn 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə sakinləri təbrik etmişdir.

Kənd sakini Vaqif Babayev çıxış edərək demişdir: Böyükdüz Kəngərli rayonunun sürətlə inkişaf edən kəndlərindəndir. Kəndimiz geniş torpaqlara malik olsa da uzun illər bu ərazilərdən istifadə olunmayıb. Bunun da səbəbi həmin torpaqların suvarma suyu ilə təmin olunmaması idi. Məhz Ali Məclis Sədrinin diqqət və qayğısı ilə son illərdə bu ərazilər suvarma suyu ilə təmin olunmuş, yüzlərlə hektar sahə əkin dövriyyəsinə qatılmış, böyük yaşıllaşdırma işləri aparılmışdır. Ərazidə istixana, toxumçuluq təsərrüfatı, eyni zamanda Naxçıvan Sənaye Kompleksi fəaliyyət göstərir ki, kənd sakinlərinin də çoxu bu müəssisələrdə çalışır. Bu gün istifadəyə verilən obyektlər kənd sakinlərinin böyük sevincinə səbəb olub. Məktəb binasının yenidən qurulması şagirdlərin burada yaxşı təhsil almasına, həkim ambulatoriyasında yaradılan şərait sakinlərə nümunəvi



səhiyyə xidməti göstərməyə imkan verəcəkdir. Bir sözlə, Böyükdüz kəndi qəsəbə görkəmindədir. Bütün bunları dövlətin kənd sakinlərinə göstərdiyi diqqət və qayğı kimi dəyərləndiririk. Bu gün Naxçıvan Muxtar Respublikası öz inkişaf dövrünü yaşayır. Bu tarixə şahidlik etmək hər bir sakin üçün xoşbəxtlikdir. Vaqif Babayev kənd sakinləri adından minnətdarlıq etmiş, yaradılanlardan səmərəli istifadə edəcəklərinə söz vermişdir.

* * *

Böyükdüz kəndində sosial obyektlər tikilərkən bir sıra abadlıq işləri də görülmüşdür. Kənddə 500 metr yeraltı, 400 metr fiberoptik və 1330 metr hava rabitə xətləri çəkilmişdir. Bundan başqa, 1 transformator quraşdırılmış, 2 transformator əsaslı təmir olunmuş, 3020 metr uzunluğunda izolyasiyalı elektrik və 50 metr polietilen borularla qaz xətti çəkilmiş, 7688 metr qaz xəttində təmir-bərpa işləri aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin mətbuat xidməti**

# İlin yekunları və qarşıda duran vəzifələr müzakirə olunub



*Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyində 2019-cu ildə görülən işlər və qarşıda duran vəzifələrlə bağlı kollegiya iclası keçirilib.*

İclasda Mədəniyyət naziri Natəvan Qədimova məruzə ilə çıxış edərək bildirib ki, 2019-cu il ərzində, ümumilikdə, 1503 mədəni-kütləvi tədbir keçirilib, 197 sərgi təşkil edilib. Xalqımızın milli-mənəvi dəyərlərinin yaşadılması, qorunması və təbliğ edilməsi, görkəmli şəxsiyyətlərin yubileylərinin, tarixi və əlamətdar günlərin qeyd olunması diqqətdə saxlanılıb.

Vurğulanıb ki, hesabat dövründə nazirliyin sistemində fəaliyyət göstərən kitabxanalarda “Naxçıvan Muxtar Respublikası – 95” mövzusunda guşələr yaradılıb, mədəniyyət müəssisələrində müxtəlif səpkili tədbirlər keçirilib.

Hesabat dövründə sosial qayğıya ehtiyacı olan və sağlamlıq imkanları məhdud uşaqlar üçün aidiyyəti təşkilatlarla birgə 14 müxtəlif tədbir təşkil edilib, 158 nəfər sağlamlıq imkanları məhdud uşağa evlərində səyyar kitabxana xidməti göstərilib.

Ötən dövrdə, ümumilikdə, xalq teatrları tərəfindən 11 yeni tamaşa hazırlanıb. Cəlil Məmmədquluzadənin 150 illik yubileyi ilə bağlı nazirlik tərəfindən, ümumilikdə, 50-dən çox tədbir keçirilib. Ərtoğrol Cavidin 100 illik yubileyi qeyd olunub.

Diqqətə çatdırılıb ki, Naxçıvan Dövlət Tarix Muzeyinin internet portalının hazırlanması ilə bağlı iş davam etdirilib. Noyabrın 30-da Naxçıvan Dövlət Musiqili Dram Teatrında bu mədəniyyət müəssisəsinin 95 illik yubileyi qeyd edilib.

Başa çatmaqda olan il ərzində muzeyləri, ümumilikdə, 642 min 220 nəfər tamaşaçı ziyarət edib ki, onlardan 176 min 901-i əcnəbi vətəndaşdır. Muzey bələdçilərinin peşə biliklərinin artırılması, təcrübə mübadiləsinin aparılması və muzey işçilərinin bütün muzeyləri tanımaları məqsədilə 12 seminar-treninq və 4 dəyirmi masa keçirilib.

Ötən dövr ərzində muzey fondlarının yeni eksponatlarla zənginləşdirilməsi işi də diqqətdə saxlanılıb, cari ildə muzeylərə 2 min 348 eksponat daxil olub.

Nazir bildirib ki, hesabat dövründə kitabxanaların da fəaliyyəti diqqət mərkəzində saxlanılıb, keçirilən tədbirlərin səmərəliliyinə nəzarət artırılıb. Ümumilikdə, 325 kitab müzakirəsi keçirilib və il ərzində kitabxanalara 1887 adda 16 min 211 nüsxə çap məhsulu daxil olub, elektron kataloqda olan kitabların ümumi sayı 14 min 966-ya çatdırılıb, elektron kitabxanadan il ərzində 2 min 342 oxucu istifadə edib. Hesabat dövrü ərzində Naxçıvan Dövlət Film Fonduna 37 bədii və sənədli film daxil edilib, filmlərin nömrələnməsi, pasportlarının yenilənməsi və lentlərin təmizlənməsi işləri davam etdirilib.

Qeyd olunub ki, nazirliyin tabeliyində olan təhsil müəssisələri üçün də 2019-cu il uğurlar ili kimi yaddaqalan olub. Bakı şəhərində keçirilən “Testene ART Baku – 2019” III Beynəlxalq İncəsənət festival-müsabiqəsində Qran-pri mükafatının qalibi olan Nəcəf Hacılı Latviyanın paytaxtı Riqa və İsveçin paytaxtı Stokholmda keçirilən I Beynəlxalq İncəsənət festival-müsabiqəsində iştirak edərək birinci yerə layiq görülüb, Stokholmda təşkil olunan möhtəşəm Qala konsertində uğurla çıxış edib.

Cari il ərzində “Əllə toxunmuş xalçaların reyestri sistemi”nə daxil edilmək üçün 585 ədəd xalça haqqında məlumatlar hazırlanıb.

Nazir çıxışında 2019-cu il ərzində mədəniyyət xadimlərinin əməyinin dövlətimiz tərəfindən yüksək qiymətləndirilməsi haqqında da məlumat verib.

Kollegiya iclası məruzə ətrafında çıxışlarla davam edib.

*Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyində 2019-cu il ərzində görülmüş işlərin yekunu və qarşıda duran vəzifələrə dair keçirilən iclasda agentliyin direktoru Samiq Sadıxov çıxış edib.*

Bildirilib ki, 2019-cu ildə muxtar respublikada bütün sahələrlə yanaşı, səhiyyə sisteminin də müasir tələblərə cavab verməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib. Onlardan biri də muxtar respublikada icbari tibbi sığortanın tətbiqinə başlanılmasıdır. Bununla əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı sərəncamlara əsasən görülən işlər böyük əhəmiyyət daşıyır.

Samiq Sadıxov diqqətə çatdırıb ki, ötən dövr ərzində Sədərək, Şərur, Kəngərli, Ordubad, Şahbuz və Babək rayonlarında yaşayan əhali tərəfindən, ümumilikdə, tibb müəssisələrinə 32 min 428 müraciət olunub. Onlardan 30 min 138 nəfərinə, yəni 93 faizinə ehtiyac olan tibbi xidmətlər rayon mərkəzi xəstəxanaları tərəfindən, 2290 nəfərə, yəni 7 faizinə isə ehtiyac olan tibbi xidmətlər icbari tibbi sığortanın tətbiqində iştirak edən digər xəstəxanalar tərəfindən həyata keçirilib. Ümumilikdə, sığortaolunanlara göstərilən 84 min 702 adda tibbi xidmətlərin ümumi məbləği 721 689.60 manat təşkil edib.

Vurğulanıb ki, qarşıya qoyulan vəzifələrə nail olmaq üçün icbari tibbi sığortanın tətbiq olunduğu rayonlarda mərkəzləşmiş məlumat bazası və elektron idarəetmə sistemi təkmilləşdirilməli, əhalinin sağlamlığının qorunması və yaxşılaşdırılması məqsədilə tibbi xidmətlərin keyfiyyəti və səmərəliliyinin artırılması üçün təkliflər verilməli, maarifləndirmə işləri davam etdirilməlidir. Həmçinin sosial, iqtisadi, maliyyə və səhiyyə sahələri üzrə təhlillər aparmaqla icbari tibbi sığorta sisteminin davamlı inkişafı istiqamətində tədbirlər görülməlidir. İcbari tibbi sığortanın tətbiqində iştirak edən tibb müəssisələrində yerləşən qeydiyyat məntəqələrinin fəaliyyətinə nəzarətin gücləndirilməsi davam etdirilməlidir.



Sonda agentlik əməkdaşlarının çıxışları dinlənilib.

* * *



*Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində cari ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaq müəssisənin direktoru Behruz Əzimov açaraq məruzə ilə çıxış edib.*

Qeyd olunub ki, muxtar respublika əhalisinin, təşkilat və müəssisələrin neft və maye qaz məhsullarına olan tələbatını ödəmək məqsədilə müəssisəyə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Bakı Neft Bazası ilə bağlanmış müqaviləyə əsasən 28 dekabr 2019-cu il tarixə 32 min 685,9 ton A-92 benzini, 111 min 714,5 ton dizel yanacağı, 19 min 633,5 ton bitum, 11 min ton mazut, 365 ton müxtəlif növ yağlar gətirilib.

Alınan yanacaq muxtar respublikaya Bakı-İran İslam Respublikası və Bakı-Gürcüstan-Türkiyə marşrutları ilə daşınıb. Belə ki, dekabrın 28-nə olan məlumata görə, Gürcüstan-Türkiyə yolu ilə 18 min 498,5 ton dizel yanacağı və 1535,3 ton A-92 benzini, ümumilikdə, 20 min 33,8 ton neft məhsulları gətirilib. İran İslam Respublikasından keçməklə 93 min 67,7 ton dizel yanacağı, 31 min 127,5 ton A-92 benzini, ümumilikdə, 155 min 193,7 ton neft məhsulları daşınıb. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Bildirilib ki, müəssisə 2019-cu ilin 11 ayında ümumi dövriyyəsi 69 milyon 439 min manat olan 158 min 829 ton müxtəlif növ neft məhsulları satıb. Bəhs olunan dövr ərzində satışdan 958,3 min manat mənfəət əldə edilib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının istilik sistemi olmayan təhsil, səhiyyə və mədəniyyət müəssisələrinə 2019-2020-ci illərin payız-qış mövsümü üçün tələb olunan 50 min litr dizel yanacağı yerlərdə təhvil verilib.

Qeyd olunub ki, nasosların, elektrik avadanlıqlarının saz vəziyyətdə olmasına daim nəzarət edilib və bu istiqamətdə lazımi tədbirlər görülüb, yanacaq ehtiyatı yaradılıb. 28 dekabr 2019-cu il tarixə müəssisənin anbarlarında 1730 ton A-92 benzini, 4832 ton dizel yanacağı, 850 ton mazut ehtiyatı vardır.

Müəssisənin rəhbəri 2020-ci ildə qarşıda duran vəzifələrdən, bu vəzifələrin yerinə yetirilməsinin vacibliyindən də danışıb. Qeyd edib ki, növbəti ildə də muxtar respublika əhalisinin, təşkilat və müəssisələrin neft və maye qaz məhsullarına olan tələbatını ödəmək məqsədilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Bakı Neft Bazası ilə 2500 ton A-95 benzini, 42 min ton A-92 benzini, 125 min ton dizel yanacağı, 22 min ton bitum, 14 min ton mazut, 1300 ton müxtəlif növ yağlar, 5500 ton maye qaz gətirilməsi üçün müqavilə bağlanılıb. Həmin neft məhsullarının daşınması üçün hazırlıq işləri aparılır.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

*Artıq başa çatan 2019-cu il Naxçıvan teatrı üçün də son dərəcə əlamətdar və yaddaqalan oldu. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 7 fevral tarixli Sərəncamına uyğun olaraq 22 may-19 iyun tarixlərində "Xalq teatrlarının muxtar respublika festivalı" keçirildi. Festival çərçivəsində maraqlı tamaşalar təqdim olundu. Naxçıvan Dövlət Musiqili Dram Teatrı Xaqani Əliyevin "Ehsan xan Kəngərli" tarixi dramını səhnələşdirib, görkəmli dramaturq Cəlil Məmmədquluzadənin anadan olmasının 150 illik yubileyi ilə əlaqədar adibin əsərləri əsasında "Ölülər və dəlilər" tamaşasını hazırlayıb. Sonuncu tamaşa Türkiyə Respublikasının Qars şəhərində də uğurla nümayiş olunub. Səhnə əsərlərinə özünəməxsus quruluşlar verən və canlandırdığı maraqlı obrazlar ilə sevilən, 60 yaşına qədəm qoyan Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidovun da bu tamaşaların hazırlanmasında böyük rolu olub.*

# Eyni ömrün fərqli obrazları



Bəli, Şeyx Ömər Osman, Rəsul Rza, Əkrəm, Xəyyam, Molla Abbas, Şeyx Hadi, Şeyx Sənan, Gilbert və adlarını sadalamadığım neçə-neçə fərqli obrazların həyat tərzini, daxili aləmini məharətlə üzə çıxararaq onları geniş auditoriya qarşısında canlandıran, həmin surətləri yaşadan bir ömür barədədir söhbətim. Əməkdar artist Tofiq Seyidov ömrü... Kiminin müəllimi, kimininsə aktyor həmkarı olan, uzun müddət bir kənddə yaşadığım bu səhnə adamının yerişində, duruşunda, üz cizgilərində də, sanki onlarla tarixi şəxsiyyətin mübarizə əzmi, həyat yaşantıları gizlənib. Uca Yaradanın bəxş etdiyi xüsusi istedadı, aktyora xas xarici görkəmi və zəngin daxili dünyası sayəsində yaratdığı müxtəlif obrazlar, peşəkarlıqla quruluş verdiyi rəngarəng tamaşalar sənətkarı qısa zamanda teatrsevərlərə sevdirə bilib...

Tanınmış sənətkarın həyat və fəaliyyətinə qısa nəzər salaraq deyim ki, Tofiq Seyidov 1959-cu il avqust ayının 2-də Babək rayonunun Zeynəddin kəndində ziyalı ailəsində dünyaya göz açıb. Lap erkən yaşlarından mədəni-kütləvi tədbirlərin fəal iştirakçısına çevrilib, yuxarı siniflərdə istedadlı məktəblilərdən ibarət dram dərnəyi yaradıb, kiçik səhnə əsərləri üzərində işləyib. Məktəbin 8-ci sinfində oxuyarkən quruluş verdiyi Mirzə Fətəli Axundovun "Hacı Qara" komediyasını seyr edən müəllimləri bu balaca oğlanın böyük istedadına heyran qalır. Sənət, peşə sahibləri də təsdiqləyərlər ki, yaradıcı insan deyilən sözə, irəli sürülən fikrə qarşı çox həssas olur, fəaliyyəti ilə bağlı xoş söz eşidəndə daha da həvəslənir. Müəllimlərindən eşitdiyi rəğbət dolu sözlər də gənc Tofiqi teatr işinə daha da həvəsləndirir, onun sonrakı fəaliyyətində stimul rolunu oynayır. Beləcə, həmin gündən sonra o həm məktəbdaxili tədbirlərdə fəal iştirak edir, həm də o zaman Naxçıvan şəhərində yerləşən 1 nömrəli mədəniyyət evinin "Gənclik" xalq teatrının üzvü kimi aktyorluq bacarığını artırmağa çalışır. Orta məktəbi bitirdikdən sonra bir neçə il teatrdan, səhnədən aralı düşsə də, bu hal heç də uzun sürmür...

XX əsr fransız filosofu Jan Pol Sartrın yaxşı bir sözü var. Deyir ki, istedad insana verilmiş borcdur. İnsanın sonrakı həyatı onun həmin borca layiq olub-olmadığını müəyyən edir. Elə Tofiq Seyidov da bir neçə il teatr sənətindən uzaq düşməsinə baxmayaraq, öz zəhməti hesabına qısa zamanda bu borca layiq olduğunu sübut edir. Belə ki, 1977-ci ildə Cəfər Cabbarlının "Solğun çiçəklər" əsəri əsasında qeyd etdiyimiz "Gənclik" xalq teatrında hazırlanan tamaşada onun oynadığı Bəhram obrazı sonrakı taleyinin əsaslı dönüş nöqtəsi olur. Bir il sonra Bakı şəhərində keçirilən "Teatr baharı" festivalında nümayiş olunan həmin səhnə əsəri I yerə layiq görülməklə kollektivə, xüsusilə də Tofiq Seyidova böyük uğur gətirir. Qalibi müəyyən etmək üçün təşkil olunan münsiflər heyətinin rəhbəri, SSRİ Xalq artisti, Azərbaycanın görkəmli teatr-kino rejissoru Ədil İsgəndərov bu gəncin istedadına yaxından bələd olur və qarşısında geniş üfüqlərin açılması üçün ona indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə imtahan verməyi məsləhət görür. Tofiq müəllim elə həmin il imtahanda uğur qazanaraq adı çəkilən ali təhsil ocağının Dram və kino aktyorluğu fakültəsinə qəbul olunur. Təhsil aldığı illərdə universitet teatrında səhnələşdirilən tamaşalarda uğurlu rolları ilə yanaşı, rejissor assistenti kimi də yaddaşlarda iz buraxır. 1982-ci ildə ali təhsil ocağını müvəffəqiyyətlə başa vuran Tofiq Seyidov təyinat əsasında Naxçıvan Dövlət Musiqili Dram Teatrında aktyor kimi peşəkar fəaliyyətə başlayır. Həmin dövrdə səhnədə öz sözünü demiş Miribrahim Həmzəyev, Vəli Babayev, Zəroş Həmzəyeva və Baxşı Qələndərli kimi teatr korifeyləri ilə bir səhnəni bölüşmək onun üçün böyük təcrübə məktəbi olur. İllər ötdükcə sənətinə daha sıx tellərlə bağlanan aktyor 1987-ci ildə müxtəlif tamaşalarda ikinci rejissor kimi də özünü sınayır və uğurlu fəaliyyətinə görə 1989-cu ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin xətti ilə Moskvada təşkil edilən ikiaylıq rejissor kursuna göndərilir.

1990-cı illərin ağrılı-acılı, müharibə məşəqqətli günləri bütün sahələr kimi, teatr sənətinin də inkişafına təsirsiz ötüşmür, bir neçə il ərzində səhnə aktyorsuz, tamaşa rejissorsuz qalır. Lakin ölkəmiz dövlət müstəqilliyi əldə etdikdən sonra insanların teatra, tamaşaya marağı yenidən özünə qayıdır. Tofiq Seyidov da Naxçıvan teatrının çətin sınaq dövrünə şahidlik edir, onu yenidən dirçəltmək üçün əlindən gələni əsirgəmir. Aktyorların çatışmadığı dönəmlərdə bir sıra tamaşalarda həm rejissorun, həm də bir neçə rolun məsuliyyətini öz üzərinə götürür. Sənətkar Naxçıvan teatrının səhnəsində "Əlincə qalası" tamaşasında Şeyx Ömər Osman, "Atamın kitabı"nda Məmməd Araz, "Bir gün də insan ömrüdür" tamaşasında Rəsul Rza, "Uçurum"da Əkrəm, "Xəyyam"da Xəyyam, "Ölülər və dəlilər"də Molla Abbas, "Şeyx Sənan"da Şeyx Hadi, "Mənim tanrım gözəllikdir, sevgidir"də Şeyx Sənan, "Məni qınamayın"da Şahin obrazları ilə tamaşaçı rəğbəti qazanıb. Tanınmış rejissor "Manqurt", "Russayağı evlənmə", "Müsyö Jordanın Qarabağa səyahəti", "Nadir şah", "Nadanlıq", "Hacı Qara", "Danışan kukla", "Balaca şahzadə", "Qılınc və qələm", "Xəyyam", "Ölülər və dəlilər" və digər tamaşalara uğurlu quruluş verib.

2012-ci ildən Naxçıvan Dövlət Universitetində pedaqoji fəaliyyətlə də məşğul olan Tofiq Seyidov gənc aktyorların yetişməsində, onların teatra cəlbində böyük əmək sərf edib. Onun yorulmaz fəaliyyəti dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib, 2016-cı ildə Prezident mükafatına, 2017-ci ildə isə "Azərbaycan Respublikasının Əməkdar artisti" fəxri adına layiq görülən sənətkar 2015-ci ildən Naxçıvan Dövlət Uşaq Teatrına rəhbərlik edir. Ötən dövr ərzində həmin teatrda hazırlanan şair Abdulla Şaiqin "Danışan kukla", eləcə də özünün müəllifliyi ilə "Kosanın kələyi", "Bahar qızı küsüb", "Tənbəl Əhməd" və digər tamaşalar balaca teatrsevərlər tərəfindən böyük maraqla qarşılanıb. Bundan başqa, teatr kollektivi Naxçıvan Uşaq Bərpa Mərkəzinin əməkdaşları ilə birlikdə sağlamlıq imkanları məhdud uşaqların iştirakı ilə mütəmadi olaraq tamaşalar hazırlayırlar.



Artıq sona çatmaqda olan il tanınmış səhnə ustası üçün onun 60 illik yubileyinin Mədəniyyət Nazirliyinin təşkilatçılığı, doğma sənət dostlarının əhatəsində yüksək səviyyədə qeyd olunması ilə yaddaqalan olub. 60 illik ömrünün çoxunu maarifpərvər işə həsr edən, 70-ə yaxın obrazı canlandıran, 25 tamaşaya quruluş verən, 12 əsərin müəllifi Tofiq Seyidovla söhbətim elə onun öz evi qədər doğma hesab etdiyi teatr zalında – "Teleskop" əsərinin məşqləri zamanı baş tutur.

Tofiq müəllim böyük Azərbaycan dramaturqu Cəlil Məmmədquluzadənin "Millətin mədəni-mənəvi tərəqqisi bundan çox asılıdır. Teatr tərbiyə ocağı, artist də tərbiyə edəndir" fikirlərini xatırladaraq deyir ki, Mirzə Cəlil ideyalarına söykənən Naxçıvan teatrı bütün dövrlərdə insanları maarifləndirən müqəddəs məbədgah rolunu oynayıb. Müasir dövrümüzdə texnologiyaların həyatımızın hər sahəsinə sirayət etdiyi, hər vasitə əlçatan olduğu bir vaxtda tamaşaçını teatra cəlb etmək, onda səhnə əsərinə qarşı həvəs yaratmaq çox çətindir. Teatra gələn tamaşaçı hər dəfə fərqli obrazları, fərqli süjet xəttini, hadisəni izləmək istəyir. Bu mənada, mən də hazırladığım tamaşalarda onların maraq dairəsinə uyğun yeni bir kompozisiya qurub təqdim etməyə çalışıram. Nümunə kimi, Azərbaycan teatr səhnəsində ilk dəfə nümayiş olunan görkəmli Norveç dramaturqu Henrik İbsenin "Kuklaların evi", Belçika dramaturqu Moris Meterlinkin "Göy quş", rus yazıçısı Aleksandr Qriboyedovun "Ağıldan bəla" tamaşalarını göstərə bilərəm. Səhnə əsərinin nə dərəcədə uğurlu alındığını isə, təbii ki, tamaşaçı alqışları, ünvanımıza söylənən sözlər xəbər verir.

Bildiyimiz kimi, aktyor tamaşaçı zövqünü oxşamaq, onun rəğbətini qazanmaq üçün bir-iki ay yorulmadan məşq edir və bəzən gözlədiyinin əksi də baş verə bilir. Bu baxımdan sənətə yeni qədəm qoyanlar daha həssasdırlar, elə onlara xitabən deyirəm ki, səhnə adamı müsbət fikirlərdən ruhlandığı kimi, tənqid eşidən zaman da gərək dözümlü olsun, vaxtında nəticə çıxarıb öz üzərində işləsin. Yalnız belə olan halda bu çətin və məsuliyyətli sənətdə uğur qazanmaq mümkündür. Təvazökarlıqdan uzaq olmasın. Bir neçə il bundan öncə baş verən bir hadisəni xatırlatmaq istərdim. 2015-ci ildə tanınmış dramaturq Əli Əmirlinin "Varlı qadın" tamaşasının premyerasından sonra foyeyə çıxanda bir-iki ailə ilə qarşılaşdım. Onlar dedilər ki, biz Türkiyədən qonaq gəlmişik. Bilməzdik ki, sizin teatrda belə maraqlı tamaşalar oynanılır, yüksək səhnə mədəniyyətinə malik bacarıqlı gənc aktyorlarınız var. Beləcə, bu müsbət fikirlər gənclərimizə böyük stimul oldu və növbəti tamaşalarımız da çox uğurlu alındı.

Tofiq Seyidov onu da qeyd edir ki, rejissor ümumi tamaşaya məsuliyyət daşıdığı halda, aktyora tək bir rol həvalə olunur. Bunun üçün də aktyor tamaşaçılara özünü rejissordan daha asan sevdirə bilir. Dünya teatr təcrübəsində də belədir ki, rejissor səhnədən tam uzaqlaşmır, ara-sıra aktyorluq fəaliyyəti ilə də məşğul olur. İndiyədək tamaşaların çoxunda mən həm aktyor, həm də rejissor kimi çıxış etmişəm. Oynadığım bütün obrazlar mənim üçün dəyərli və əzizdir. Lakin dahi dramaturq Hüseyn Cavidin "Xəyyam" əsəri əsasında hazırlanan eyniadlı tamaşada canlandırdığım Xəyyam obrazının qəlbimdəki yeri başqadır, əvvəldən sonadək, sanki öz həyatımda baş verənləri yaşayırdım. İllər ötsə, zaman dəyişsə də, Xəyyamı heç vaxt unutmaram. Çünki mən özümü bir aktyor kimi məhz Xəyyam surətində tapa bildim... Bu obraz həm də 60 illik həyatımdakı yaradıcılıq fəaliyyətimin səhnə hesabatı kimi mənə əzizdir.

*Dahi şairimiz Nizami Gəncəvi deyirdi: "Bir elmi öyrənmək istədikdə sən, çalış ki hər şeyi kamil biləsən". Dillər əzbəri olan bu ifadə bizə seçdiyimiz sənəti, çalışdığımız peşəni dərindən yiyələnib orada özümüzü tapmağı təlqin edir. Onlarla fərqli obrazı bir ömrə sığdıran, sənətdə özünü tapan sənətkarı – Tofiq Seyidovu daim teatr səhnəsində görmək diləyi ilə...*

**✍ Nail ƏSGƏROV**

## Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı qeyd olunub




*Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Mədəniyyət nazirliklərinin və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində tədbir keçirilib.*

Tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev muxtar respublikada uşaqlara göstərilən dövlət qayğısından danışıb, onları qarşıdan gələn bayramlar münasibətilə təbrik ediblər.

Sonra Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinin direktoru Rəsmiyyə Xasıyeva uşaqlara göstərilən qayğıya görə mərkəzin kollektivi və valideynlər adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Tədbirdə mərkəzin uşaqları ilə bərabər, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbində təhsil alan uşaqlar da iştirak ediblər.

Sonra uşaqlara hədiyyələr verilib.

Tədbirin bədii hissəsində Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı aktyorlarının ifasında səhnəciklər nümayiş etdirilib. Şaxta baba və Qar qızın gəlişi, gətirdikləri hədiyyələr uşaqların sevincinə səbəb olub. Tədbirdə, həmçinin Naxçıvan Şəhər Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin mahnı və rəqs qrupu da maraqlı ifalar ediblər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

* * *



***Naxçıvan Dövlət Universitetində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə tədbir keçirilib. Öncə universitetin İncəsənət fakültəsinin sərgi salonunda əlamətdar tarixi gün münasibətilə təşkil edilən sərgiyə baxış olub.***

Fakültənin akt zalında təşkil edilən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni oxunub. Universitetin rektoru, dosent Elbrus İsayev çıxış edərək ümummilli liderin Naxçıvanda qəbul etdiyi tarixi qərarların ən mühümü kimi 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci iclasında 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə bağlı qərarının əhəmiyyətindən danışıb.

Universitetin İncəsənət fakültəsinin tələbələri bir-birindən maraqlı musiqi, rəqs nömrələri ilə tədbiri daha da şənləndiriblər. Qeyd edək ki, bu tarixi gündə azərbaycanlılarla həmrəy, birgəlik nümayiş etdirən əcnəbi tələbələrin də Azərbaycan dilində bədii qiraəti, musiqi, rəqs nümunələri tədbirə xoş ovqat bəxş edib. Yeni ilin rəmzi sayılan Şaxta baba və Qar qızın gəlişi tədbirin rəngarəngliyinə səbəb olub.

Sonda xatirə şəkli çəkdirilib.

**Səadət ƏLİYEVA**

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 888